**Nuranə Abdullayeva**
Magistrant
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
E-mail:abdullayevanurana@yahoo.com

# Uşaqlarda bədii estetik zövqün formalaşmasında uşaq illüstrasiyalarının əhəmiyyəti

**Xülasə:** Azərbaycan kitab qrafikası sahəsində yaddaqalan əsərlər yaradan M.Vlasovun 60-cı illər yaradıcılığında müxtəlif mövzulu kitablara çəklilmiş illüstrasiyalarda da realistik-gerçəkçi bədii münasibətin müsbət təzahürünü görmək mümkündür. Bu mənada onun "Məlik Məmməd" (1961) adlı nağıllar məcmusuna "Oğlan fili necə çəkdi?" (1948) çin nağılına, A.S.Puşkinin "Ruslan və Lyudmila" (1949) və N.V.Qoqolun "Peterburq povestləri" (1950) əsərlərinə və alman yazıçısı A.Zegersin "Yeddinci xaç" (1953) romanına çəkdiyi rəngli və ağ-qara gerçəkçi rəsmlərdə vurğuladığımız bədii-estetik məziyyətləri görmək mümkündür.

Xalq rəssamı Yusif Hüseynov uşaqların estetik tərbiyəsində əhəmiyyətli rol oynayan şeir və hekayələrin bədii tərtibinə də diqqət yetirir. Bunlardan A.Şaiqin "Şələquyruq", xalq nağılı əsasında tərtib olunmuş "Əkil-bəkil" kitabçalarının rəngli illüstrasiyaları, həmçinin "Göyərçin" və "Pioner" jurnallarında müntəzəm çap edilən şəkillər Yusif Hüseynovun bu sahədə yaradıcılıq axtarışlarının davamına sübutdur.

**Açar sözlər:** Qrafika, uşaq, illüstrasiya, obraz, ədəbiyyat, müasir.

Azərbaycan kitab qrafikası sahəsində yaddaqalan əsərlər yaradan M.Vlasovun altmışıncı illər yaradıcılığında müxtəlif mövzulu kitablara çəkilmiş illüstrasiyalarda da realistik-gerçəkçi bədii münasibətin müsbət təzahürünü görmək mümkündür. Bu mənada onun "Məlik Məmməd" (1961) adlı nağıllar məcmusuna çəkdiyi əsərlərin adını qeyd etmək olar. Bu illüstrasiyaların duyulası özünəməxsus xüsusiyyəti rəssamın bədii görkəm verdiyi qəhrəmanların və fantastik varlıqların daşıdıqları məna-məzmun yükünə müvafiq estetik tutumda gerçəkləşdirilməsidir.

Öz yaradıcılığında ayrı-ayrı xalqların ədəbiyyatına müraciət edən S.Vlasovun müharibədən sonralar yaratdığı kitab qrafikası nümunələrində onun bu müxtəlifliyi həm də ədəbi mətnlərə münasibətində də görmək mümkündür. Qeyd edək ki, müəllif bu fərqliliyi həmin xalqların tarixinə, etnoqrafiya və adət-ənənələrinə bələdçiliyi ilə ifadə etdiyindən, bədii görüntüyə çevrilən hadisə və obrazlar elə zamanında oxucular tərəfindən maraqla qarşılanmışdır. Onun "Oğlan fili necə çəkdi?" (1948) çin nağılına, A.S.Puşkinin "Ruslan və Lyudmila" (1949) və N.V.Qoqolun "Peterburq povestləri" (1950) əsərlərinə və

alman yazıçısı A.Zegersin "Yeddinci xaç" (1953) romanına çəkdiyi rəngli və ağ-qara gerçəkçi rəsmlərdə vurğuladığımız bədii-estetik məziyyətləri görmək mümkündür.

Rəssamın "Azərbaycan nağılları"nın iki nəşrinə (1950 və 1954) verdiyi tərtibatda qədim əlyazmalarının bədii tərtibatı ilə səsləşən estetik məqamlar duyulmaqdadır. Kitabın ümumi tərtibatındakı klassik yanaşma ilə real biçimli illüstrasiyaların bir araya gətirilməsi zamanına görə fərqli olmaqla, ənənəviləşən kitab mədəniyyətinə yeni çalarlar əlavə etməyin özünəməxsus görüntüsü idi.

S.Vlasovanın akvarellə işlənmiş kitab illüstrasiyalarında ədəbi mətnin qabardılmasına meyl duyulmaqdadır. Bunu onun uşaqlar üçün nəzərdə tutulmuş kitablara çəkdiyi təsvirlərdə müşahidə etmək olar. "Şəngülüm, Şüngülüm, Məngülüm" (1949,1955), M.Ə.Sabirin "Təmsillər" (1953) və R.Rzanın "Heyvanların yuxusu" (1955) kitablarına çəkilən illüstrasiyalar bu qəbildəndir.

M.Vlasovun dəst-xəttini səciyyələndirən realistik-gerçəkçi bədii üsulun F.Dostoyevskinin "Alçaldılmışlar və təhqirolunmuşlar" kitabının bədii tərtibatında tətbiqi də maraqlı və təzadlı hadisələrlə zəngin olan ədəbi mətnin qavranılmasına təsiri böyük olmuşdur, desək, həqiqəti söyləmiş olarıq.

Xalq rəssamı Yusif Hüseynov uşaqların estetik tərbiyəsində əhəmiyyətli rol oynayan şeir və hekayələrin bədii tərtibinə də diqqət yetirir. Bunlardan A.Şaiqin "Şələquyruq", A.Səhhətin "Cücələr", xalq nağılı əsasında tərtib olunmuş "Əkil-bəkil" kitabçalarının rəngli illüstrasiyaları, həmçinin "Göyərçin" və "Pioner" jurnallarında müntəzəm çap edilən şəkillər Yusif Hüseynovun bu sahədə yaradıcılıq axtarışlarının davamına sübutdur. Balacalar üçün çəkilmiş şəkillərdə və illüstrasiyalarda rəssamın müşahidə qabiliyyəti, təbiət mənzərələrinin təsvirinə xüsusi həvəs və bacarığı özünün bariz ifadəsini tapmışdır.

1958-ci ilin yanvar ayında Azərbaycan və dünya xalqlarının nağılları, uşaq yazıçılarının əsərləri, folklor nümunələri olan tapmacalar, nağıllar, hikmətli sözlər nəşr edildiyi "Göyərçin" ədəbi-bədii jurnalı nəşr edilməyə başlayır. Jurnalın ilk rəssamı isə məhz Yusif Hüseynov olmuşdur. Sonradan Rafiq Mehdiyev, Arif Hüseynov və başqaları da rəssam kimi jurnalın digər nömrələrində çalışmışlar. Azərbaycan xalqının görkəmli söz ustadlarının çıxış etdiyi bu jurnalda azyaşlı uşaqlara, yeniyetmələrə məsləhətlər, tövsiyələr verildi. Bu mənada uşaqların bədii-estetik dünyagörüşünün formalaşmasında rəssam yaradıcılığının məsuliyyəti də olduqca böyük idi.

Rafiq Mehdiyevin yaradıcılıq yolu kitab tərtibatçısı kimi başlamışdır. Lakin o, qrafikanın digər növlərinə də, o cümlədən dəzgah qrafikasına və siyasi plakata da maraq göstərirdi. Bundan başqa, sərgilərdə onun rəngkarlıq əsərləri də uğurla nümayiş etdirilirdi. Azərbaycanın xalq rəssamı Rafiq Mehdiyev kitab

illüstrasiyası sahəsində bir çox əsərlər yaratmışdır. Kitab rəssamının əsas vəzifəsi təsvir etdiyi qəhrəmanlara və hadisələrə ictimai münasibəti ifadə etməkdən, kitabın ideya məzmununa və bədii formasını müasir tələblərlə yanaşmaqdan ibarət idi. Ədəbi irsimizi cizgilərlə canlandıran rəssamın kitab illüstrasiyaları özünəməxsus xüsusiyyətləri ilə tamaşaçı düşüncəsini cəlb edir. Bu əsərlərin milli kitab qrafikası sənətimizin inkişafında xüsusi rol oynadığını əminliklə qeyd edə bilərik.

XX əsrin 60-cı illərində respublikamızda sərbəst yaradıcılıq meylləri güclənmişdi və bu cəhət sənət aləmində müəyyən istiqamətlər də özünü göstərirdi. İstedadlı, daim yaradıcılıq axtarışları aparan rəssam milli zəminə qayıtmanı Azərbaycanın klassik, demokratik ruhlu bədii ədəbiyyat yaradıcılarından Mirzə Cəlilin əsərlərində gördü. Yazıçının "Poçt qutusu" hekayəsinə, "Danabaş kəndinin əhvalatları" povestinə çəkdiyi illüstrasiyaları ilə o, yaradıcılığında yeni bir istiqaməti - qrafikanı inkişaf etdirməyə başladı. Görkəmli yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin "Saqqallı uşaq" hekayəsinin illüstrasiya edən rəsmlər də maraqlıdır. Bu rəsmlərin gözəçarpan vəziyyəti onların aktual, anlaşıqlı olması, təsvir vasitələrinin inandırıcılığıdır. Bu illüstrasiyalarda rəssam milli koloriti saxlamağa çalışmış, ədəbi əsərlərin məzmunu, yazı üslubu ilə həmahəng səslənən gözəl sənət nümunələri yaratmışdır.

Bununla belə, uşaq aləmi R.Mehdiyevin yaradıcılığında mütəmadi inkişaf prosesi müşayiət olunur. O, uzun müddət "Göyərçin" jurnalının baş rəssamı vəzifəsində çalışmışdır. Sovet dövründə, eləcə də müstəqillik illərində azyaşlıların əvəzsiz sevimli dərgisi rolu oynayan "Göyərçin"in baş redaktoru rəssamın böyük qardaşı, uşaqlar üçün gözəl şeir və nəsr əsərləri yazmış Tofiq Mahmud idi. Bir ailədə böyüməlári onların ruhən yaxın olmasına zəmin yaradırdı. Məhz buna görə idi ki, bu iki yaradıcı adamın sənət birliyi "Göyərçin" jurnalındakı fəaliyyətləri ilə məhdudlaşmırdı. T.Mahmudun bir çox kitablarının tərtibatçı rəssamı R.Mehdiyev olmuşdur.

Rəssamın yaradıcılığında milli obrazlar geniş yer alır. O, əsas diqqəti obrazlara yönəltmək istəmiş və demək olar ki, ön planda təsvir etmiş, arxa fon sabit qalmış, minimum detallarla tamamlanmışdır. Bu, oxucunun diqqətini hekayənin obrazlarına yönəltmək məqsədi daşıyırdı.

Xalq rəssamı Rafiq Mehdiyev yaradıcılığının ilkin dövründə kitab tərtibatında əsasən klassik ədəbiyyata müraciət etmişdir. Azərbaycan ədəbiyyatına əvəzsiz əsərlər bəxş edən, Cəlil Məmmədquluzadə yaradıcılığının bir neçə kitab və hekayələrinə Rafiq Mehdiyevin tərtibatı və illüstürasiyaları xüsusi rəng qatmışdı. Görkəmli ədibin 1958-ci ildə çap olunmuş "Qurbanəli bəy" kitabının üz qabığı tərtibatı və bütünlükdə hekayənin illüstrasiyaları məhz ona məxsus idi. Hal-hazırda illüstrasiyaların bir neçəsinin orijinal nüsxəsi

Azərbaycan Milli İncəsənət Muzeyinin qrafika fondunda qorunub saxlanılır. İllüstrasiyalar kağız üzərində tuşla işlənmişdir. Əsərlərdə rəssamın ustalığı diqqəti cəlb edir. Yalnız ağ-qara rənglərlə təsvir olunan obraz və obyektlər sanki canlanırdı. Obrazların həyatiliyi, real olmasının səbəbi daha qabarıq və ön planda təsvir olunmasında idi. Obrazlardakı qabarıqlıq diqqəti onlara yönəldir. Əsəri oxuduqca bu rəsmlərin daha bir sirri ortaya çıxır – səhifələrdən qabarıq şəkildə boylanan obrazların mimikaları hekayədəki surətlərin eyni məqamdakı yaşantıları ilə üst-üstə düşür. Belə halda əsəri mütaliə edən oxucu həmin anda surətlərin düşüncələrini həm də görürdü. R.Mehdiyev obrazlarının milli geyimləri, tipik davranışları onları oxucuya daha da doğmalaşdırırdı.

Davud Kazımovun Cəlil Məmmədquluzadənin "Poçt qutusu" və "Saqqalı uşaq" hekayələrinə çəkdiyi illüstrasiyaların ironik-komik ovqatının yaranmasında, heç şübhəsiz, ədəbi materialın rolu əvəzsizdir. Qara tuşu özünə təsvir materialı seçən rəssamın pero ilə yaddaqalan bədii ifadə imkanlarını nümayiş etdirdiyi danılmazdır. Onun "Saqqalı uşaq" hekayəsinə həsr etdiyi lövhələrin birində qara çuxalı, belinə qurşaq bağlamış çal papaqlı bir kişinin dizinin birini yerə qoymaqla, qələmlə divarda şəkil çəkməsi öz əksini tapıb. Hekayənin məzmununda ən maraqlı səhnələrdən biri olan bu məqamı rəssam bir rənglə gerçəkləşdirsə də, nümayiş etdirdiyi yüksək ustalığın sayəsində onun oxucunu duyğulandıracaq təsirliliyinə nail ola bilmişdir.

Elçin Aslanovun kitab qrafikası sahəsində ilk fəaliyyəti də 1960-cı illərə təsadüf edir. Dekorativ sənətimizin ölməz ənənələrindən sənətkarlıqla istifadə edən Elçin Aslanovun müasir milli kitab qrafikamızın gözəl nümunələrini yaratmışdır. Onun "Dədə Qorqud" və "Koroğlu" dastanlarına, xalq nağıllarına, uşaq mahnıları məcmuələrinə və s. verdiyi tərtibatlar öz orijinallığı ilə daima diqqəti cəlb edir.

Daha sonra E.Aslanov "Tıq-tıq xanım" uşaq kitabına tərtibat verir. Kitabda bir çox hekayələrə onların məzmununa xas, əsas məğzi açan səhnəyə həsr olunmuş illüstrativ materiallar uşaq aləmini özünə daha çox cəlb etməkdə güclü təsir gücünə malikdir. Kitabın tərtib edildiyi dövrdə bir çox rəssamlar uşaq kitab tərtibatında yüksək xidmətlər göstərmiş və fərdi yaradıcılıq nümayiş etdirmişdilər. Onların hər birini birləşdirən əsas məqsəd isə uşaqların estetik tərbiyəsi məsələsi idi. Balacalar üçün çəkilmiş şəkillərdə və illüstrasiyalarda rəssamın müşahidə qabiliyyəti, təbiət mənzərələrinin təsvirinə xüsusi həvəs və bacarığı özünün bariz ifadəsini tapmışdır.

"Tıq-tıq xanım" kitabına edilmiş illüstrasiyanın dekorativliyi mərkəzi təsvirin daha aydın qavranılmasına imkan yaradır. Kitab səhifəsi, hərflərin yastı naxış kimi düzləndiyi ağ kağız səthi kitab illüstrasiyasının forma xüsusiyyətlərini müəyyənləşdirir. Bu halda rəssam yalnız tək səhifə ilə deyil, açıq kitabın qoşa səhifələrinin tərtibatı ilə işləyir. Rəssamın kitabın bəzəyi və

illüstrasiyaları yastı olmasını xüsusi diqqətdə saxlayaraq kitab qrafikasının qanunauyğuluq prinsiplərindən kənara yayınmamağa çalışmışdır.

## Ədəbiyyat:


1. Ağayev V. Kitab qrafikasında rəsm. Bakı: Beynəlxalq Aeroport, 2006. 152 s.
2. Bədəlova S. Rafiq Mehdiyev.Bakı: İşıq, 1977. S. 55.
3. Əsgərova N. Xalq rəssamı Rafiq Mehdiyevin yaradıcılığında uşaq kitabları // Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. 2014. №2 (14). S. 44-47.
4. Əliyev Ziyadxan. Davud Kazımov. Bakı –Təhsil, 2012.
5. Həbibov N. Rəssam və kitab. // "Ədəbiyyat və incəsənət" qəz., 1966, 7 may.
6. Гаджиев П. Азербайджанская Советская графика – Баку: изд-во АН Азербайджанской ССР, 1962.


## Значение детских иллюстраций в формировании художественного эстетического вкуса у детей

### Резюме


Азербайджан создал памятные произведения в области книжной графики. В творчестве Власова шестидесятых годов можно увидеть позитивное проявление реалистичного художественного отношения и в иллюстрациях к книгам на разные темы.

В этом смысле его сборник сказок ”Малик Мамед“ (1961) "как мальчик рисовал слона?"(1948) китайская сказка, “Руслан и Людмила" Пушкина (1949) и из произведений Гоголя “Петербургские повести” (1950) и в красочно-черном и черно-белом произведениях романа немецкого писателя Зегерса “Седьмой крест” (1953) можно увидеть художественно-эстетические достоинства, которые мы подчеркиваем.

Народный художник Юсиф Гусейнов также обращает внимание на художественное оформление стихотворений и рассказов, играющих важную роль в эстетическом воспитании детей. Для примера- красочные иллюстрации книг Шаига “Шалагуйруг”, “Акил-Бакил”, составленных на основе народной сказки, а также фотографии, регулярно опубликованные в журналах “Голубь” и “Пионер”, свидетельствуют о продолжении творческих поисков Юсифа Гусейнова.


**Ключевые слова:** Графика, дети, образ, литература, современный

## The importance of children's illustrations in the formation of artistic aesthetic taste in children

### Summary


Azerbaijan has created memorable works in the field of book graphics. In Vlasov's work of the sixties, you can see a positive manifestation of a realistic

artistic attitude in the illustrations for books on various topics. In this sense, his collection of fairy tales ”Malik Mamed“ (1961) "How did a boy draw an elephant?"(1948), a Chinese fairy tale," Ruslan and Lyudmila " by Pushkin (1949) and from Gogol's works “Petersburg stories” (1950) and in the colorful-black and black-and-white works of the novel by the German writer Zegers, “The Seventh cross” (1953), you can see the artistic and aesthetic advantages that we emphasize.

People's artist Yusif Huseynov also pays attention to the artistic design of poems and stories that play an important role in the aesthetic education of children. Colorful illustrations of Shaig's books "Shalaguyrug”," Akil-Akil”, compiled on the basis of a folk tale, as well as photos regularly published in the magazines "Dove” and "Pioneer", testify to the continuation of Yusif Huseynov's creative search.

**Key words:** Graphic, children, illustration, form, literature, modern